**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**ƏMR**

**№** Ü/028

**Bakı şəhəri** "19" fevral 20 20 il

**"Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi adından inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin siyahısının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi sədrinin 2018-ci il 17 oktyabr tarixli Ü/066 nömrəli əmrində dəyişikliklər edilməsi barədə**

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi sədrinin müvafiq əmrləri ilə Agentlik Aparatının strukturuna daxil olan bəzi şöbələrin adlarında və strukturunda edilmiş dəyişiklikləri nəzərə alaraq, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 1-ci hissəsinə və "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının 5.6-1-ci, 5.8-ci və 5.44-1-ci bəndlərinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 5.5.10-cu yarımbəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi adından inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı" yeni redaksiyada təsdiq edilsin **(əlavə olunur)**.

**2.** "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi adından inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin siyahısının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi sədrinin 2018-ci il 17 oktyabr tarixli Ü/066 nömrəli əmrinin 1-ci hissəsi ləğv edilsin.

**3.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi **(Mansur Piriyev)** bu əmrlə təsdiq edilmiş İnzibati xətalar haqqında işlər üzrə "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi adından inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin yeni redaksiyada təsdiq edilmiş Siyahısı"nın Agentliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Agentlik Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsi **(İbrahim Babayev)** inzibati xəta haqqında iş üzrə bütün materialların qanunvericiliyin tələblərinə uyğunluğuna nəzarəti təmin etsin və hər rübdə 1 (bir) dəfə aparılmış nəzarətin nəticələri barədə məlumatları rəhbərliyə təqdim etsin.

**5.** Agentlik Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsi **(İbrahim Babayev)** bu əmrdən irəli gələn məsələləri səlahiyyəti daxilində həll etsin.

**6.** Bu əmrin icrasına nəzarət müəyyən edilmiş vəzifə bölgüsünə uyğun olaraq, sədr müavinləri **Rüfət Rüstəmzadəyə**, **Rəşad Mafusova**, **Balarəhim Quliyevə və Aparatın rəhbəri Zəkiyyə Mustafayevaya** həvalə edilsin.

**Əsas:** Agentlik Aparatının rəhbəri Zəkiyyə Mustafayevanın 31 yanvar 2020-ci il tarixli D2/11/000337 nömrəli Xidməti məruzəsi.

**Sədr** **Qoşqar Təhməzli**

*Azərbaycan Respublikasının*
*Qida Təhlükəsizliyi Agentliyi sədrinin*
*2020-ci il "19.02.20" tarixli "21/028" nömrəli*
*Əmri ilə təsdiq edilmişdir*

**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi adından İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin**
**Siyahısı**

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi adından inzibati xətalar haqqında işlərə aşağıdakı vəzifəli şəxslər tərəfindən baxılır:

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (bundan sonra-**Məcəllə**) 219-cu, 220-ci, 222-ci, 428.1-ci, 428.4-cü, 444-cü, 447.0.1-447.0.6-cı, 447.0.9-cu, 453-cü və 544.2-ci maddələri üzrə Qida Təhlükəsizliyi Agentliyinin səlahiyyətlərinə aid edilmiş məsələlərlə bağlı inzibati xətalar haqqında işlərə:

Qida Təhlükəsizliyi Agentliyinin sədri;
Sədr müavinləri;
Aparatın rəhbəri;
Aparat rəhbərinin müavini;
Hüquq, kadr və icraya nəzarət şöbəsinin müdiri;
Hüquq, kadr və icraya nəzarət şöbəsi müdirinin müavini - Hüquqi təminat sektorunun müdiri;
Hüquq, kadr və icraya nəzarət şöbəsinin Hüquqi təminat sektorunun baş məsləhətçisi;
Hüquq, kadr və icraya nəzarət şöbəsinin Hüquqi təminat sektorunun böyük məsləhətçisi;
Qida zəncirinə nəzarət və regional bölmələrlə iş şöbəsinin müdiri və şöbə müdirinin müavini;
Qida zəncirinə nəzarət və regional bölmələrlə iş şöbəsində sektor müdiri;
Qida zəncirinə nəzarət və regional bölmələrlə iş şöbəsində baş məsləhətçi;
Qida zəncirinə nəzarət və regional bölmələrlə iş şöbəsində böyük məsləhətçi;
Qida təhlükəsizliyi şöbəsinin müdiri və şöbə müdirinin müavini;
Qida təhlükəsizliyi şöbəsinin Qida təhlükəsizliyinin tənzimlənməsi və istehlakçıların hüquqlarının müdafiəsi sektorunun müdiri;
Qida təhlükəsizliyi şöbəsinin Qida təhlükəsizliyinin tənzimlənməsi və istehlakçıların hüquqlarının müdafiəsi sektorunun baş məsləhətçisi;
Qida təhlükəsizliyi şöbəsinin Qida təhlükəsizliyinin tənzimlənməsi və istehlakçıların hüquqlarının müdafiəsi sektorunun böyük məsləhətçisi;
Bitki sağlamlığı şöbəsinin müdiri və şöbə müdirinin müavini;
Bitki sağlamlığı şöbəsində sektor müdiri;
Bitki sağlamlığı şöbəsində baş məsləhətçi;
Bitki sağlamlığı şöbəsində böyük məsləhətçi;
Heyvan sağlamlığı şöbəsinin müdiri və şöbə müdirinin müavini;
Heyvan sağlamlığı şöbəsində sektor müdiri;
Heyvan sağlamlığı şöbəsində baş məsləhətçi:
Heyvan sağlamlığı şöbəsində böyük məsləhətçi;
Agentliyin regional bölmələrinin rəhbərləri və regional bölmə rəhbərlərinin müavini.